# Acı xatirələr bölüşülüb



Fevralın 24-də Azərbaycan Texniki Universitetində (AzTU) Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimi keçirilib.

Tədbirdə AzTU-nun rektoru professor Havar Məmmədov Xocalı faciəsinin başvermə səbəblərindən və acı nəticələrindən söz açıb. Qeyd edilib ki, keçmiş SSRİ-nin 366-cı alayının dəstəyi ilə erməni qəsbkarlarının həyata keçirdikləri bu soyqırımı, misli görünməmiş vəhşilik aktı təkcə xalqımıza deyil, bütün bəşəriyyətə qarşı törədilmiş cinayət kimi XX əsrin tarixinə düşüb. Xocalıda yüzlərlə əliyalın insan - qoca, cavan, uşaq, qadın görünməmiş amansızlıqla qətlə yetirilib, evlər yandırılıb, şəhər yerlə yeksan edilib.

Bildirilib ki, Azərbaycanın ovaxtkı hakimiyyəti silahlı hərbi birləşmələrlə, erməni millətçi separatçıları ilə qeyri-bərabər döyüşdə Xocalı əhalisinə nəinki heç bir kömək göstərməyib, hətta bu cinayət barədə məlumat belə yaymayıb. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu dəhşətli cinayətə dövlət səviyyəsində qiymət verilib, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü və ardıcıl işlər aparılıb. Artıq bir neçə ildir ki, Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diaspor təşkilatları Xocalı faciəsi barədə həqiqətləri tam aydınlığı ilə mütəmadi dünya ictimaiyyətinin nəzərinə çatdırır. “Xocalıya ədalət!” kampaniyası xarici ölkələrdə xüsusilə geniş əks-səda doğurub. Hazırda dünyanın bir çox ölkəsi Xocalı faciəsini soyqırımı kimi qəbul edib. Söz yox ki, Xocalıda baş verən dəhşətlərin tanınmasının miqyası getdikcə artacaqdır.

Milli Məclisin deputatı Tahir Rzayev Xocalı soyqırımına həsr olunan bu cür tədbirlərin keçirilməsinin gənc nəslin məlumatlandırılmasında əhəmiyyətini qeyd edib.

Tədbirdə Xocalı şəhər 2 nömrəli orta məktəbinin direktoru Fiqurə Rüstəmova faciə ilə bağlı acı xatirələrini bölüşüb, ermənilərin törətdikləri vəhşiliklərdən söz açıb.

Sonra ermənilərin törətdikləri qırğınlarla bağlı kadrlar nümayiş etdirilib, tələbələr Xocalı faciəsinə həsr olunan ədəbi-bədii kompozisiya göstəriblər.